""Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin
tabeliyindəki tibb müəssisələrində
çalışan səhiyyə işçilərinin əməyinin ödənilməsi Qaydası"na
Əlavə

# "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrin qrup və kateqoriyalara bölünməsi meyarları

1. "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrində (bundan sonra – tibb müəssisələri) çalışan səhiyyə işçilərinin əmək haqlarının ədalətli formalaşdırılması məqsədilə müvafiq tibb müəssisələri fəaliyyət göstəriciləri nəzərə alınaraq 1-ci, 2-ci və 3-cü qruplara, o cümlədən 2-ci və 3-cü qruplara aid edilən tibb müəssisələri A və B kateqoriyalara bölünür.

2. Tibb müəssisəsinin bu Əlavədə nəzərdə tutulmuş qaydada topladığı balların cəmi maksimal 100 bal olmaqla müvafiq tibb müəssisəsinin qrup və kateqoriyalara bölünməsi üçün meyar hesab edilir.

3. Ballar tibb müəssisələrinin aşağıdakı fəaliyyət göstəricilərinə əsasən hesablanır:

3.1. tibb müəssisəsinin strukturunun şaxəlilik dərəcəsi;

3.2. tibbi-statistik göstəricilərə əsasən tibb müəssisəsinin fəaliyyətinin əhatə dairəsinin genişliyi səviyyəsi;

3.3. tibb müəssisəsində mütərəqqi idarəetmə metodlarının tətbiqi səviyyəsi.

4. Bu Əlavədə nəzərdə tutulan göstəricilər bu Əlavənin 7-ci hissəsinə uyğun olaraq alt-göstəricilərə bölünür.

5. Bu Əlavənin 3.1-ci bəndində nəzərdə tutulmuş fəaliyyət göstəricisi üzrə yekun bal alt-göstəricilər üzrə toplanılan ballara 0.5 əmsal tətbiq edilməklə maksimal 30 bal təşkil edir.

6. Bu Əlavənin 3.2-ci və 3.3-cü bəndlərində nəzərdə tutulmuş fəaliyyət göstəriciləri üzrə yekun bal alt-göstəricilər üzrə toplanılan balların cəminə bərabərdir və müvafiq olaraq maksimal 40 bal və 30 bal təşkil edir.

7. Fəaliyyət göstəriciləri üzrə nəzərdə tutulmuş alt-göstəricilər və ballar aşağıdakı cədvələ əsasən müəyyən edilir:

| Sıra nömrəsi | Fəaliyyət göstəriciləri (alt-göstəricilər) | Ballar | | | | |
|---|---|---|---|---|---|---|
| | | 1 | 2 | 3 | 4 | 5 |
| ***1*** | ***Tibb müəssisəsinin strukturunun şaxəlilik dərəcəsi:*** | ***Maksimal bal 30*** | | | | |
| 1.1. | çarpayı sayı | 1-65 | 66-125 | 126-200 | 201-300 | >301 |
| 1.2. | ümumi ştat sayı | 1-200 | 201-500 | 501-1000 | 1001-1800 | >1800 |
| 1.3. | diaqnostika xidmətinin mövcudluğu | USM və (və ya) Rentgen | Mamoqraf və (və ya) Qastroskopiya | KT | MRT | Kontrastlı KT və (və ya) kontrastlı MRT |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1.4. | ixtisaslı həkim sayı (rezidentura, klinik ordinatura və uzmanlığı bitimiş, habelə elmi dərəcəyə malik olan ixtisaslı həkimlər istisna olmaqla) | 1-50 | 51-100 | 101-200 | 201-300 | >300 |
| 1.5. | rezidentura, klinik ordinatura və uzmanlığı bitimiş, habelə elmi dərəcəyə malik olan ixtisaslı həkimlərin sayı | 1-2 | 3-5 | 6-9 | 10-14 | >15 |
| 1.6. | tibb müəssisəsinin fəaliyyətini təmin edən profil şöbələrin (bölmələrin) sayı | 2 | 3-5 | 6-8 | 9-11 | >11 |
| 1.7. | profil şöbələrin fəaliyyətini təmin edən ixtisaslaşdırılmış struktur vahidlərin (bölmələrin) sayı (elmi-tədqiqat məqsədləri üçün klinik bazalar istisna olmaqla) | 1 | 2 | 3 | 4 | >5 |
| 1.8 | elmi-tədqiqat məqsədləri üçün klinik baza olan profil şöbələrin fəaliyyətini təmin edən lixtisaslaşdırılmış struktur vahidlərin (bölmələrin) sayı | 1 | 2 | 3 | 4 | >5 |
| 1.9. | təcili tibbi xidmət şöbəsinin mövcudluğu | x | x | 1 | x | x |
| 1.10. | TTTYS-nın mövcudluğu | x | 1 | x | x | x |
| 1.11. | stasionar bölmənin mövcudluğu | x | 1 | x | x | x |
| 1.12. | intensiv nəzarət blokunun mövcudluğu | 1 | x | x | x | x |
| 1.13. | ümumi reanimasiya şöbəsinin mövcudluğu | x | 1 | x | x | x |
| 1.14. | ixtisaslaşmış reanimasiya şöbəsinin mövcudluğu | x | x | 1 | x | x |
| 1.15. | sterilizasiya şöbəsinin (bölməsinin) mövcudluğu | x | 1 | x | x | x |
| 1.16. | ixtisaslaşmış laboratoriya şöbəsinin (bölməsinin) mövcudluğu | x | 1 | x | x | x |
| 1.17. | texniki xidmətin mövcudluğu (biomedikal-tibbi mühəndis və texniki xidmət) | x | 1 | x | x | x |
| 1.18. | texniki xidmətin mövcudluğu (mühəndislik və texniki xidmət) | 1 | x | x | x | x |
| ***2*** | ***Tibbi-statistik göstəricilərə əsasən tibb müəssisəsinin fəaliyyətinin əhatə dairəsinin genişliyi səviyyəsi:*** | ***Maksimal bal 40*** | | | | |
| 2.1. | xəstəxanaya müraciət sayına görə | 1-100 000 | 100 001-200 000 | 200 001-300 000 | 300 001-400 000 | >500 000 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 2.2. | stasionara qəbul sayına görə | 1-1000 | 1001-2500 | 2501-4000 | 4001-6000 | >6000 |
| 2.3. | cərrahiyyə əməliyyatlarının sayına görə | 1-500 | 501-1000 | 1001-2500 | 2501-4000 | >4000 |
| 2.4. | çarpayının orta dolma əmsalına görə (%) | 41-50 | 51-60 | 61-70 | 71-80 | >80 |
| 2.5. | orta çarpayı gününə görə (gün sayı) | 13-15 | 10-12 | 8-9 | 6-7 | <5 |
| 2.6. | cərrahi doğuş göstəricisi (%) | 32-35 | 28-31 | 25-27 | 22-24 | <21 |
| 2.7. | təcili yardım çağırışlarının sayı | 1-40 000 | 40 001-60 000 | 60 001-80 000 | 80 001-100 000 | >100 000 |
| 2.8. | uşaqların peyvəndlənməsinə (%) | 41-50 | 51-60 | 61-70 | 71-80 | >80 |
| ***3*** | ***Tibb müəssisəsində mütərəqqi idarəetmə metodlarının tətbiqi səviyyəsi*** | ***Maksimal bal 30*** | | | | |
| 3.1. | ixtisaslı kadrların hazırlanması və cəlb edilməsi | 1-3 | 4-5 | 6-7 | 8-9 | >10 |
| 3.2. | tibbi xidmətlərin genişləndirilməsi | 1 | 2 | 3 | 4 | >5 |
| 3.3. | icbari tibbi sığorta üzrə Xidmətlər Zərfinə daxil olmayan tibbi xidmətlərə görə ödənişlərin həcmi (manatla) | 50 000 | 50 001-100 000 | 100 001-150 000 | 150 001-200 000 | >200 001 |
| 3.4. | İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfinə daxil olmam tibbi xidmətlərə görə ödənişlərin həcmi (manatla) | 1-400 000 | 400 001-600 000 | 600 001-800 000 | 800 001-1 000 000 | >1 000 000 |
| 3.5. | keyfiyyət standartlarının tətbiqinə | 4-6 | 7-9 | 10-12 | 13-15 | >16 |
| 3.6. | xəstəxanaya daxil olan ümumi müraciətlərin sayında ilkin səhiyyə xidməti tərəfindən göndərilən müraciətlərin (göndərişlərin) nisbəti i (%) | 21-30 | 31-40 | 41-50 | 51-60 | >60 |

8. Bu Əlavənin 7-ci hissəsinə müvafiq olaraq toplanılan balların cəminə əsasən tibb müəssisəsi qruplar üzrə aşağıdakı qaydada bölünür:

8.1. 1-ci qrup üzrə - 30 və daha az bal toplayan tibb müəssisəsi;

8.2. 2-ci qrup üzrə - 31-60 bal toplayan tibb müəssisəsi;

8.3. 3-cü qrup üzrə - 61 və daha çox bal toplayan tibb müəssisəsi.

9. 2-ci və 3-cü qrupa aid edilən tibbi müəssisəsi toplanılan ballara əsasən aşağıdakı kateqoriyaya bölünür:

9.1. 2-ci qrupun A kateqoriyası üzrə - 46-60 bal toplayan tibb müəssisəsi, 3-cü qrupun A kateqoriyası üzrə - 80 və daha çox bal toplayan tibb müəssisəsi;

9.2. 2-ci qrupun B kateqoriyası üzrə - 31-45 bal toplayan tibb müəssisəsi, 3-cü qrupun B kateqoriyası üzrə - 61-80 bal toplayan tibb müəssisəsi.

10. Tibb müəssisəsinin bu Əlavədə göstərilən fəaliyyət göstəricilirənə və toplanılan ballara yenidən baxılması hər il yanvar ayın 31-dək İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin yaratdığı komitə tərəfindən həyata keçirilir.